# O səs Vətən dedi...



**"Mühitin insanın gələcək inkişafına, şüuraltına təsiri istisna deyil. Atamgil 7 qardaşdılar. Əmilərimdən beşi torpaqlarımızın azadlığı uğrunda savaşıb. Üç əmim qazidir. Zülfüqar əmimin oğlu İsrafil Vətən müharibəsində Laçının azadlığı uğrunda gedən qanlı savaşda qəhrəmancasına şəhid olub. Əmim Mənsum İbrahimovu tanıyırsınız. Məşhur xanəndə, muğam ustasıdır. Atam həmişə qədim xanəndələrə, tar ifaçılarına qulaq asırdı. Ağlım söz kəsəndən, həyatı anlamağa başlayandan ailəmizdə iki mövzunun həmişə gündəm olduğunu görmüşəm. Evimizdə Qarabağ problemi ilə başlayan söhbətlər yanıqlı bir musiqi ilə tamamlanardı. Yaxud da həzin bir musiqi ilə başlayan məclis Qarabağ problemi, ermənilərin törətdiyi vəhşiliklər haqqında söhbətlərlə bitərdi. Düşünürdüm ki, mən hərbçidən çox musiqiçi, sənətkar kimi xalqıma, vətənimə daha çox xidmət edə bilərəm. Ona görə də həyatımı musiqiyə, tar ifaçılığına bağladım. Əsgər olmasam da, tarımla, sənətimlə vətənimə xidmət etdim. Vaxtaşırı əsgərlərimizin qarşısında çıxış etmək mənə ruh verir. Özümü onda bu vətənin əsgəri hesab edirəm".**

Redaksiyamızın bugünkü qonağı gənc tarzən Rəşad Qəşəm oğlu İbrahimovdur. Rəşad əslən Ağdam rayonunun İmamqulubəyli kəndindən olsa da, 10 dekabr 1985-ci ildə Bərdə rayonunda anadan olub. Mədəniyyət və İncəsənət Universitetində bakalavr və magistratura pilləsi üzrə təhsil alıb. 2008-ci ildən professional səhnədə olan Rəşad Beynəlxalq Muğam Mərkəzinin solisti kimi mədəniyyətimizi, musiqimizi ölkəmizdə və xaricdə ləyaqətlə təmsil edir. Eyni zamanda Azərbaycan Milli Konservatoriyasında və Milli Konservatoriyanın nəzdində fəaliyyət göstərən Musiqi Kollecində pedaqoji fəaliyyətlə də məşğul olur.

Rəşadla onun ömür yolunu birlikdə vərəqləyirik. Gözlərimiz önündə vətənə, incəsənətimizə xidmət edən gənc bir ömrün uğur salnaməsi açılır. Gənc tarzən sənət dostları ilə birlikdə iştirak etdiyi, Rusiyada keçirilən "Zov Urala" beynəlxalq müsabiqəsində 1-ci yerə layiq görülüb. Meksika, Argentina, Paraqvay, Fransa, İsveç, İsrail, Türkiyə, Rusiya, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, Gürcüstan, Bosniya və Herseqovina, Cənubi Koreya və digər ölkələrdə musiqi mədəniyyətimizi uğurla təmsil edib. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Televiziyasının təşkilatçılığı ilə 2019-cu və 2022-ci illərdə keçirilən VII və VIII "Muğam" Televiziya Müsabiqəsində ansambla rəhbərlik edib. İsraildə keçirilən "Layal al tarab" və Sankt-Peterburqda keçirilən "Dayrafest" beynəlxalq musiqi festivallarının laureatıdır.

Rəşad deyir ki, bu festivallara dünyanın məşhur müğənniləri, musiqiçiləri dəvət edilir. Vaxtilə bu festivalda ölkəmizi dünyaşöhrətli muğam ustası Alim Qasımov təmsil edib. Mənim qismətimə isə respublikanın Əməkdar artisti Təyyar Bayramov, Təbriz Yusubov və Amil Mustafayevlə birgə iştirak etmək düşdü. Festivalda çox böyük tamaşaçı kütləsi var idi. Orada elə bir performans göstərdik ki, tamaşaçılar alqışlarla bizi dəfələrlə səhnəyə qaytardılar. Əslində, bu, bizim xalqımızın musiqisinin, mədəniyyətinin gücü idi. Bununla da sübut etdik ki, azərbaycanlılar yalnız döyüş meydanında yox, bütün meydanlarda qalib ola bilirlər.

Rəşad deyir ki, əvvəllər xarici səfərlərə gedəndə utana-utana gedirdik. Qancoşduran, qəhrəmanlıq musiqimizi ifa edəndə sıxılırdıq. Adama elə gəlirdi ki, kim isə zaldan qalxıb soruşacaq ki, belə qəhrəmanlıq tarixi, musiqisi olan xalqın torpağı işğal altında qalmaz. Çox şükür ki, Müzəffər Ali Baş Komandan, Azərbaycan Ordusu, əsgər və zabitlərimiz üstümüzdən bu ləkəni götürdülər. İndi konsert zallarına girəndə düşünürük ki, müzəffər bir xalqın sənətkarlarıyıq...

Gözümü açandan top səsi, güllə səsi, qan-qada görmüşəm. Şükürlər olsun ki, ermənilərin bədbəxtlik gətirdiyi o torpaqlarda sülhü, əmin-amanlığı bərpa etdik. İndi mənim bir arzum var, bir zamanlar ermənilərin nifrət toxumu səpdiyi Xankəndidə konsert vermək, Azərbaycan musiqisini səsləndirmək. Qoy bütün dünya görsün ki, biz o torpaqlara tankla, topla deyil, tar-kamanla gedirik. Bizim arzumuz da, istəyimiz də torpaqlarımızda davamlı sülhü qoruyub saxlamaqdır.

Rəşad İbrahimov ailəlidir. İki övlad atasıdır. Qızı Fidan birinci sinfə, oğlu Məhəmməd isə bağçaya gedir. Rəşad deyir ki, hiss edirəm ki, Məhəmmədin güclü musiqi duyumu var. Klassik musiqimizi, muğamlarımızı daha çox sevir...

Rəşad deyir ki, musiqi dünyası, sirli, sehirli bir dünyadır. O dünyaya qədəm qoyan hər kəs gərək ifa etdiyi alətdən çox ürəyini, hisslərini dilləndirə bilsin.

Biz bu gün ömrünü incəsənətə həsr etmiş bir gəncin ürəyinin səsini dinlədik. O səs Vətən dedi, Azərbaycan dedi...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 28 fevral, № 45.- S.11.